**DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!**

**AZƏRBAYCANIN GƏLƏCƏYİNƏ SƏS VER!**

# YAP tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Novruzov Babək rayonunun Vayxır, Xal-Xal və Nəcəfalıdizə kəndlərində seçicilərlə görüşlər keçirib












5 saylı Şahbuz-Babək seçki dairəsi üzrə Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Dünyamalı oğlu Novruzov seçicilərlə görüşlərini davam etdirir. Növbəti görüş Babək rayonunun Vayxır, Xal-Xal və Nəcəfalıdizə kəndlərində keçirilib.

Görüşlərdə Yeni Azərbaycan Partiyasının Babək rayon təşkilatının sədri İsa Məmmədov Siyavuş Novruzovun ötən müddət ərzində seçicilərini parlamentdə layiqincə təmsil etdiyini, ona göstərilən etimadı doğrultduğunu deyib. İ.Məmmədov Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının dinamik inkişafından, həyata keçirilən sosial layihələrin uğurlu nəticələrindən, vətəndaşların dövlətin hərtərəfli qayğısı ilə əhatə olunmalarından və digər məsələlərdən bəhs edərək seçiciləri fevralın 9-da keçiriləcək parlament seçkilərində aktiv iştirak etməyə və YAP-ın namizədinə səs verməyə çağırıb.

Deputatlığa namizəd Siyavuş Novruzov xalqımızın Ümummilli Lideri Heydər Əliyevin qurucusu olduğu, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə zəngin və şərəfli inkişaf yolu keçmiş Yeni Azərbaycan Partiyasının bütün seçkilərin aşkar favoriti olduğunu deyib. O, seçicilərin keçirilən görüşlərə böyük ruh yüksəkliyi ilə qatılmalarının təsadüfi olmadığını bildirərək **"Bu, vətəndaşların Yeni Azərbaycan Partiyasına olan böyük inam və etimadının bariz nümunəsidir. İnsanlar Prezident İlham Əliyevin muxtar respublikaya daim böyük diqqət göstərməsini olduqca yüksək qiymətləndirirlər. Eyni zamanda, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə görülmüş işlər əhalinin rifah halının daha da yaxşılaşmasını, sosial müdafiə və təminat sisteminin güclənməsini, sosialyönümlü iqtisadiyyatın inkişafını təmin edib. Digər tərəfdən, qarşıda duran bütün sosial proqramların və infrastruktur layihələrinin uğurla icra edilməsi, məşğulluq səviyyəsinin ardıcıl olaraq yüksəldilməsi, bir çox sahələrdə davamlı inkişaf göstəricilərinin qeydə alınması Naxçıvan Muxtar Respublikasının tərəqqi yolunda olduğunu göstərir. Babək rayonu və onun bütün kəndlərində də həyata keçirilən abadlıq-quruculuq işləri, yüksək infrastruktur təminatının yaradılması insanların layiqli həyat şəraitinin təmin olunmasını mümkün edib",** - deyə vurğulayıb.

Yeni Azərbaycan Partiyasının seçki proqramından bəhs edən Siyavuş Novruzov ötən 5 ildə görülmüş işlərin ölkəmizin qüdrətinin artmasını təmin etdiyini deyib. O, daha güclü Azərbaycan naminə YAP-ın 10 addım paketi haqqında məlumat verərək qarşıdakı dövrdə dayanıqlı iqtisadi inkişafın davam etdirilməsinin, sahibkarlığın gücləndirilməsinin, təhsilin səviyyəsinin artırılmasının, əhalinin rifahının daha da yaxşılaşdırılmasının, ölkəmizin beynəlxalq mövqeyinin möhkəmləndirilməsinin, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasının, ərazi bütövlüyümüzün bərpa olunması yönündə fəaliyyətin davam etdirilməsinin və digər istiqamətlərin başlıca vəzifələr kimi müəyyən edildiyini diqqətə çatdırıb. S.Novruzov seçiciləri fevralın 9-da parlament seçkilərində fəal iştirak etməyə və Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

Görüşlər zamanı seçicilərin təklifləri dinlənib, onları maraqlandıran suallar cavablandırılıb. Seçicilər xalqın etimadını doğrultmuş YAP-ın namizədinə səs verəcəklərini qətiyyətlə ifadə ediblər.

# YAP-ın deputatlığa namizədi Aytən Hüseynova Səbail rayonunun Badamdar qəsəbəsi sakinləri ilə görüşüb



Yeni Azərbaycan Partiyasının (YAP) 29 saylı Səbail seçki dairəsi üzrə deputatlığa namizədi Aytən Hüseynova təbliğat-təşviqat kampaniyası çərçivəsində yanvarın 30-da Badamdar qəsəbəsi sakinləri ilə görüşüb.

Seçicilərə seçki platforması və seçiləcəyi təqdirdə deputat kimi qarşıya qoyduğu hədəflər haqqında ətraflı məlumat verən YAP-ın namizədi sakinlərlə onları maraqlandıran məsələlər ətrafında müzakirələr aparıb, onların təkliflərini dinləyib və müvafiq qeydlər aparıb.

Fikir mübadiləsi zamanı vurğulanıb ki, dövlətimizin imkanları genişləndikcə daxili siyasətin əsas istiqamətlərindən olan sosial siyasət, eləcə də əhalinin rifah halının yaxşılaşdırılmasına yönələn tədbirlər özünü daha qabarıq şəkildə göstərir.

YAP-ın siyasi kursuna dəstəklərini ifadə edən Badamdar qəsəbəsi sakinləri seçki günü məntəqələrə gələrək öz mövqelərini nümayiş etdirəcəklərini bildiriblər.

MÜŞFİQƏ

# Deputatlığa namizəd Ağalar Vəliyev seçicilərlə növbəti görüşlərini keçirib




Yeni Azərbaycan Partiyasının (YAP) 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsi üzrə deputatlığa namizədi Ağalar Vəliyev seçkiqabağı təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşlərini Yevlax şəhərində müvəqqəti məskunlaşmış ağdamlı məcburi köçkünlərlə və bəhs olunan dairənin Ağdam rayonunu əhatə edən məntəqlərinin seçiciləri ilə keçirib.



Görüşlərdə deputatlığa namizəd Ağalar Vəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə ardıcıllıqla həyata keçirdiyi inkişaf siyasəti, aparılan dərinməzmunlu islahatlar haqqında ətraflı məlumat verib. O qeyd edib ki, bu islahatlar ölkəmizin inkişafına böyük təkan verməklə yanaşı,




insanların sosial rifahının daha da yüksəlməsi ilə nəticələnib. Deputatlığa namizədin sözlərinə görə, sosial-iqtisadi, məhkəmə-hüquq sistemində aparılan islahatlar ciddi nəticələr verməkdədir, vətəndaşlar islahatların nəticələrini öz həyatlarında hiss edirlər. **"Dövlət başçısı hələ 2018-ci ildə keçirilən prezident seçkiləri ərəfəsində ölkəmizdə böyük islahatlara başlanacağının anonsunu vermişdi. 2019-cu ilin əvvəlindən etibarən Prezident İlham Əliyevin imzaladığı çoxsaylı Fərman və sərəncamlar əsasında aktiv şəkildə islahatların reallaşdırılmasına başlanıldı. Ötən il aparılan dərinməzmunlu sosial islahatlar iki mərhələdə həyata keçirildi və bundan 4,2 milyon insan faydalandı. Qeyd olunan islahatlar çərçivəsində müavinətlərin, əməkhaqlarının və pensiyaların artırılması xüsusilə təqdirəlayiq haldır. Bu, ona dəlalət edir ki, respublikamızda ədalətli resurs bölgüsü təmin edilir və qayğıya ehtiyacı olan hər kəs dövlət tərəfindən dəstəklənir",** - deyə A.Vəliyev vurğulayıb.

Görüşdə çıxış edən seçicilər Prezident İlham Əliyevin inkişaf siyasətini dəstəklədiklərini, ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasına böyük inam bəslədiklərini bildiriblər. Çıxışlarda vurğulanıb ki, Ağalar Vəliyev əvvəllər də parlamentdə təmsil olunarkən seçiciləri ilə daim sıx ünsiyyət qurub, onları narahat edən məsələləri müvafiq qurumların nəzərinə çatdıraraq həllinə nail olub. Seçicilər qarşıdan gələn seçkilərdə 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsi üzrə deputatlığa namizəd Ağalar Vəliyevə səs verəcəklərini bildiriblər.

# Pərvin Kərimzadənin növbəti görüşü Gəncənin Təbriz küçəsində olub






37 saylı Nizami birinci (Gəncə) seçki dairəsindən fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərdə Yeni Azərbaycan Partiyasının (YAP) namizədi Pərvin Kərimzadənin seçicilərlə görüşləri uğurla davam edir. Növbəti görüş Gəncənin Bağbanlar adlanan ərazisinin Təbriz küçəsində olub.

Deputatlığa namizəd seçicilərin qapılarını döyərək, onların arzu və istəklərini öyrənib, təkliflərini dinləyib. Xoş əhval-ruhiyyədə davam edən görüşlərdə Pərvin Kərimzadə seçicilərini fevralın 9-da seçki məntəqələrinə dəvət edərək, Vətənimizin tərəqqisi, xalqımızın parlaq gələcəyi, dövlətçiliyimizin daha da möhkəmləndirilməsi naminə Yeni Azərbaycan Partiyasına və onun namizədlərinə səs verməyə çağırıb.

Seçicilər Pərvin Kərimzadənin V çağırış Milli Məclisin deputatı kimi fəaliyyətindən razı qaldıqlarını bildirib, fevralın 9-da ailə üzvləri ilə birlikdə seçki məntəqələrinə gələrək, Yeni Azərbaycan Partiyasının namizədini yenidən Milli Məclisdə onları təmsil etməsi üçün dəstəkləyəcəklərini qeyd ediblər.